Təsisçi: Azərbaycan Tibb Universiteti

# Təbib

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 07 (1712) 16 oktyabr 2020 - ci il Qiyməti 50 qəpik

# Azərbaycan Prezidenti: Bizim icazəmiz olmadan hər hansı ölkə bizim torpağımıza sülh gücləri göndərə bilməz

**Hər kəs anlamalıdır ki, bu gün sülh güclərinin göndərilməsi deyəndə Azərbaycan torpaqlarından, suveren Azərbaycan ərazisindən söhbət gedir. Bizim icazəmiz olmadan hər hansı ölkə sülh güclərini bizim torpağımıza göndərə bilməz. Bu, qanuna, beynəlxalq hüquqa ziddir. Bu, qəbuledilməzdir. Ona görə belə bir narahatlıq bizdə yoxdur.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu fikirləri Türkiyənin "Haber Türk" telekanalına müsahibəsində Qarabağa sülh güclərinin göndərilməsi ilə bağlı fərziyyələrə münasibət bildirərkən deyib.

"Belə səylər ola bilər, belə istəklər ola bilər. Mən bunu istisna etmirəm. Ancaq bütün məsələlər masa üzərində olmalıdır. Onu da bildirməliyəm ki, müzakirə mövzusu olan baza prinsiplərində sülh güclərinin göndərilməsi ən son mərhələdə nəzərdə tutulur. Yəni, ilk növbədə, bayaq qeyd etdiyim məsələlər həll edilməlidir - torpaqların boşaldılması, məcburi köçkünlərin qaytarılması, nəqliyyat məsələlərinin, sərhədlərin açılması, ondan sonra ticarət. Ondan sonra sülh güclərinin gətirilməsi də istisna deyil. Ancaq bu 30 il ərzində nəzərə alsaq ki, müzakirə müddətində biz müsbət nəticəyə yaxınlaşmadıq, bu məsələ heç müzakirə də olmayıb. Ona görə bu məsələ ilə bağlı hər hansı bir fərziyyə, istək ola bilər. Ancaq Azərbaycanın razılığı olmadan bu, mümkün deyil", - deyə Azərbaycan Prezidenti vurğulayıb.



## BU SAYIMIZDA



2

### Böyük Elmi Şurada

### Ali Baş Komandanımızın rəhbərliyi altında müqəddəs savaşda qələbənin əldə olunmasında iştirak etməyə hazırıq!



3

### ATU Silahlı Qüvvələrin Yardım Fonduna 200 min manat ianə edib

3

### Universitetimizlə əməkdaşlıq edən Türkiyə ali məktəbləri dəstək məktubları göndərirlər

3

# Ali Baş Komandanımızın rəhbərliyi altında müqəddəs savaşda qələbənin əldə olunmasında iştirak etməyə hazırıq!

**Azərbaycan Vətən müharibəsi yaşayır. Məlum olduğu kimi, sentyabrın 27-si səhər saatlarından etibarən Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatı başlayıb. Azərbaycan da müqəddəs savaşa başlayaraq öz torpaqlarının və əhalisinin müdafiəsinə qalxıb. Artıq rəşadətli hərbçilərimiz onlarala kəndi, bir qəsəbəni və Cəbrayıl şəhərini düşmən tapdağından azad ediblər.**

Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Ordusunun zəfəri münasibətilə xalqımıza müraciəti bütün Azərbaycan xalqı kimi bizləri də - Azərbaycan Tibb Universitetinin əməkdaşları və tələbələrini qürurlandırdı.

ATU olaraq biz hamımız dövlət başçısının qətiyyətli addımlarını dəstəkləyirik. Ali Baş Komandanımızın rəhbərliyi altında müqəddəs savaşda qələbənin əldə olunmasında iştirak etməyə hazır olduğumuzu bəyan edirik.

Eyni zamanda bəyan edirik ki, ATU klinikalarının yüksək ixtisasa malik təcrübəli və peşəkar tibbi heyəti erməni təxribatı nəticəsində yaralanan mülki əhalinin və hərbçilərin daim qulluğundadır! Eləcə də, ATU-nun Hərbi Tibb Fakültəsinin tələbələri və rezidentləri Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə ilk gündən iştirak edir.

Prezident İlham Əliyevin dediyi kimi: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

#KarabakhisAzerbaijan #Azerbaijan #ATU #AzərbaycanTibbUniversiteti #ATU90 #AMU #prayforAzerbaijan




**Azərbaycan Tibb Universitetinin növbəti Elmi Şurası keçirilib. İclasda açılış nitqi ilə çıxış edən universitetin rektoru, professor Gəray Gəraybəyli hazırda ölkəmiz üçün gərgin, eyni zamanda əlamətdar bir dövrün olduğunu bildirib.**





# Böyük Elmi Şurada

## Professor G.Gəraybəyli: "Yeni ixtisasların tədrisi haqqında düşünürük"

"Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyev cənablarının əmri ilə, respublikamızda ermənilərin hərbi təxribatına cavab olaraq ordumuz əks-hücum əməliyyatları keçirir. Davam edən uğurlu əməliyyatlar zamanı bir sıra yaşayış məntəqələrimiz düşmən işğalından azad olunub. Bu gün hər kəsin bir arzusu, bir amalı var – torpaqlarımız işğaldan tam azad olunsun, tezliklə Azərbaycan bayrağı işğaldan azad edilmiş bütün ərazilərdə dalğalansın. İnanırıq ki, Ali Baş Komandanın rəhbərliyi altında bu qələbə sevincini yaşamağımıza çox az qalıb".

Elmi Şuranın gündəliyinin müzakirəsindən əvvəl rektor iki yeni təyinatla bağlı məlumatı Şura üzvlərinin nəzərinə çatdırıb. Qeyd edib ki, Səhiyyə Nazirliyinin Kollegiyasının qərarı ilə ATU-nun Tərbiyə işləri üzrə prorektoru, professor Rafiq Məmmədhəsənov öz xahişi ilə tutduğu vəzifədən azad olunub və bu vəzifəyə dosent Zülfüqar Musabəyov təyin edilib. Eləcə də, ATU-nun Tədris Stomatoloji Klinikasının direktoru, t.e.d. Alqış Səfərov öz xahişi ilə tutduğu vəzifədən azad olunub və bu vəzifəyə t.ü.f.d. Mahir Səfərov təyin edilib.

Sonra rektor gündəlikdə duran əsas məsələ - Azərbaycan Tibb Universitetinin 2020/2021-ci tədris ilinin payız semestrində tədrisin təşkili, universitet kollektivinin qarşısında duran vəzifələr haqqında danışıb: "Təhsil Nazirliyinin qərarına əsasən, pandemiya səbəbindən 15 sentyabr tarixindən təhsil distant şəkildə başlayıb. Universitetimizdə bu tədris ilindən etibarən yeni ixtisaslar açılıb. Sevindirici haldır ki, bu ixtisaslara da tələbat var. Biz gələcəkdə müasir tibbin ehtiyacı olduğu digər istiqamətlər üzrə ixtisasların tədrisi haqqında da düşünürük".

Rektor bildirib ki, artıq I kursda yeni standartlarla təhsil bir sıra kafedraların tədris yükünə təsir edib. Hətta bir kafedranın bağlanması məsələsi də ortaya çıxıb.

2018-ci ildə Prezidentin sərəncamı ilə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın təsdiqləndiyini vurğulayan professor G.Gəraybəyli qeyd edib ki, bu proqramda yer alan önəmli məsələlər arasında 2 prioritet sahədən biri də tibb təhsili sahəsidir: "Tibb təhsili ilə bağlı qarşımızda bir çox məsələlər və tapşırıqlar var. İlk növbədə ATU-da tədris olunan proqramın dünya standartlarına uyğun proqramla uzlaşdırılması vacibdir. Bu da beynəlxalq tibb standartlarının tətbiqinə, tələbə mobilliyinin yaranmasına gətirib çıxaracaq. Türkiyə universitetləri ilə sıx əlaqələrimiz bu ali məktəblərlə tələbə mübadiləsini genişləndirmək imkanları yaradır. Sadəcə, universitetlərimizdəki tədris proqramları arasında böyük fərq olduğuna görə biz mübadiləni artıra bilmirik. Bu sahədə dəyişikliklər etmək üçün işlərə başlamışıq".

Rektor onu da vurğulayıb ki, beynəlxalq akkreditasiyanı əldə etmək üçün ciddi işlər görülür və bu istiqamətdə də Türkiyə universitetlərinin dəstəyi var.

Professor G.Gərabəyli I kursların tədris proqramındakı dəyişikliklərin bəzi fənn saatlarının azalmasına gətirib çıxararaq bir sıra zəruri ixtisarlara yol açdığını deyib və kafedra müdirlərinə bu məsələ ilə bağlı düzgün və ədalətli bölgü aparılmasına dair tapşırıq verib.

ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev 2020/2021-ci tədris ilinin payız semestrində tədrisin təşkili və universitet kollektivinin qarşısında duran vəzifələr haqqında danışıb. Prorektor bu il tədris prosesində nəzərdə tutulan dəyişikliklərə diqqətə çatdıraraq bəzi yeniliklərin tətbiqi ilə bağlı məsələlərin həlli istiqamətində görülən işlərdən söhbət açıb.

ATU-nun Tədris şöbə müdiri, dosent Samir Cavadov isə bu payız semestrində əyani və distant tədrisin təşkili, biliyin qiymətləndirilməsi, tələbələr üçün tədris qaydaları haqqında da məlumat verib.

Elmi Şuranın iclasında İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, ə.e.x., professor Vaqif Şadlinskinin kafedrada məsləhətçi-professor vəzifəsinə seçilməsi barədə ərizəsinə də baxılıb. Professor G.Gəraybəyli ə.e.x., professor Vaqif Şadlinskinin uzun illər universitetimizdə müxtəlif vəzifələrdə yüksək səviyyəli fəaliyyəti barədə şura üzvlərinə məlumat verərək, ona uzun ömür, cansağlığı və gələcək işlərində uğurlar arzulayıb.

Sonra Elmi Şura üzvləri bəzi cari məsələləri də müzakirə ediblər. ATU-nun I kursuna qəbul olunacaq hindistanlı tələbələrə rəsmi qeydiyyatdan keçə bilmələri üçün möhlət verilməsi və onların distant dərslərinin noyabrın 1-dən başlanılması, II Müalicə-profilaktika fakültəsinin Prezident təqaüdündən məhrum edilmiş bəzi tələbələrinin təqaüdlərinin bərpa olunması üçün vəsatət qaldırılması barədə qərarlar qəbul edilib.

**ATU-nun mətbuat xidməti**

# ATU-nun tədris prosesinin təşkilində bir sıra dəyişikliklər edilib



**◆ Məlumdur ki, hazırda ölkədə hərbi vəziyyət və xüsusi karantin rejimi hökm sürür. Bununla əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qaydalarına uyğun olaraq, Təhsil Nazirliyi ilə razılaşdırıldıqdan sonra, universitetdə Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin sədrliyi ilə keçirilən elmi şuranın qərarına əsasən universitetin tədris prosesinin təşkilində bir sıra dəyişikliklər edilib.**

ATU-nun tədris şöbəsinin müdiri, dosent Samir Cavadovun sözlərinə görə, Tibb (Müalicə işi), Tibbi profilaktika (İctimai səhiyyə), Stomatologiya, Əczaçılıq, Hərbi tibb (Hərbi həkim işi), Tibb bacısı, Fizioterapiya və tibbi reabilitasiya ixtisaslarının bütün tələbələri üçün əyani təhsilalma forması nəzərdə tutulub: "Əyani təhsilalma formasında tədris prosesinin başlanılması 15 oktyabr tarixindən nəzərdə tutulur. Əyani təhsil zamanı praktik məşğələlər zamanı qrupda tələbə sayı auditoriyaların tutumu nəzərə alınaraq, 4-6 nəfər olmaqla müəyyən edilir. Bu zaman həftəlik dərs mövzularının hansı formada tələbələrə çatdırılacağı haqqında artıq kafedra müəllimlərinə məlumat verilib".

Qeyd edək ki, bununla yanaşı qeyri-tibb profilli fənlər üzrə ATU-da distant təhsil də davam etdirilir.

Həmçinin, universitetdə təhsilə start verərkən istər müəllim heyəti, istərsə də tələbələr üçün ölkədəki sanitar-epidemioloji vəziyyətə uyğun qaydalar qoyulub. Belə ki, universitetə daxil olarkən bütün əməkdaşların və tələbələrin hərarəti təmassız termometr vasitəsilə ölçülür, bədən hərarətinin 37.1°C və ya daha yüksək olduğu müəyyən edildikdə, onların universitetə daxil olmasına yol verilmir. İş prosesində tibbi və ya parça maskalardan, üz sipəri və digər qoruyucu vasitələrdən istifadə edilməlidir. İstifadə edilən fərdi qoruyucu vasitələr mütəmadi olaraq, habelə çirkləndikdə və ya nəmləndikdə dəyişdirilməli və bu zaman əllərin gigiyenasına dair tələblərə riayət edilməlidir. Sıxlığın qarşısının alınması və sosial məsafənin təmin olunması məqsədilə tədris korpuslarının önündə, dəhlizlərdə, dərs otaqlarının qarşısında tələbələrin və əməkdaşların birlikdə toplanmasına yol verilmir.

Qeyd edək ki, 2020/2021-ci tədris ilinin payız semestri üzrə əyani təhsilə oktyabr ayının 15-dən start verilir. Tədris prosesi zamanı göstərilən qaydalara əməl etmənizi sizdən xahiş edirik. Hər birinizə uğurlar diləyirik!

# Türkiyədə çalışan 45 azərbaycanlı həkim hərbçilərimizə tibbi yardım göstərmək üçün Azərbaycana gəlib

**Türkiyədə tibbi təhsilini bitirərək qardaş ölkədə işləyən 45 azərbaycanlı həkim könüllü olaraq cəbhə bölgələrində hərbçilərimizə tibbi yardım göstərmək üçün Vətənə gəlib.**







Azərbaycanlı həkim heyəti oktyabrın 10-da Ankaranın Esenboğa Hava Limanından yola salınıblar.

Qeyd edək ki, həkim soydaşlarımızın Azərbaycanın belə taleyüklü günündə Vətənimizə dönməsi Türkiyədəki Azərbaycanlı Həkimlər Dərnəyinin təşkilatçılığı və Azərbaycanın Ankaradakı səfirliyinin dəstəyi ilə həyata keçirilib.

Bundan başqa qardaş ölkədə toplanan 2 tona yaxın tibbi ləvazimat da ölkəmizə göndərilib.

Gənc həkimlərimiz böyük ruh yüksəkliyi ilə Azərbaycana döndüklərini üçrəngli bayrağımıza bürünərək Esenboğa Hava Limanında təntənəli şəkildə yola çıxmaları ilə də nümayiş etdiriblər.

# Universitetimizlə əməkdaşlıq edən Türkiyə ali məktəbləri dəstək məktubları göndərirlər

**Bu ağır günlərdə Azərbaycanın ən böyük dəstək aldığı ölkənin dost və qardaş Türkiyə olduğu şəksizdir.**



Azərbaycan Tibb Universitetinin sıx əməkdaşlıq etdiyi Türkiyə ali məktəbləri də bu haqq savaşında Azərbaycanın yanında olduqlarını bəyan ediblər.

Bu günlərdə Türkiyənin 19 Mayıs Universiteti, İnönü Universiteti və Qazi Universitetlərinin rəhbərliyindən ATU-ya dəstək məktubları daxil olub.

İnönü Universitetinin rektoru, professor Dr. Ahmet Kızılay ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə ünvanladığı məktubda bir daha Azərbaycanın yanında olduğunu bildirib: "İnönü Universiteti olaraq Ermənistanla müharibədə can Azərbaycanın yanında olduğumuzu billməyinizi istəyirik. Hərbi əməliyyatlar başladıqdan sonra İnönü Universitetinin rəhbər nümayəndələri qatıldıqları bütün tədbirlərdə bunu vurğulayırlar. Türkiyənin ən güclü universitetlərindən biri olaraq ATU ilə əməkdaşlığımıza görə çox şanslıyıq. Gələcəkdə də davamlı və möhkəm əməkdaşlığımızın davam edəcəyinə inanırıq. Bir daha bildirmək istəyirik ki, ehtiyac duyulan hər sahədə sizlərə dəstək olmağa hazırıq".

Ondokuz Mayıs Universitetinin rektoru, professor Dr. Yavuz Ünal da ATU rəhbərliyinə ünvanladığı məktubda hər mənada Azərbaycanın yanında olduğunu bildirib. Qeyd edib ki, Azərbaycan öz torpaqları uğrunda savaşır. Bu müharibədə Ermənistanın mülki şəxsləri hədəfə alması, uşaqları qətlə yetirməsi heç bir əndazəyə sığmır. Ondokuz Mayıs Universiteti bu hücumları qınamaqla yanaşı, Azərbaycanın yanında olduğunu bəyan edib, ATU ilə həmrəyliyini bəyan edərək ölkəmizi hər mənada dəstəkləməyə hazır olduğunu bir daha vurğulayıb.

Qazi Universitetinin rektoru, professor Musa Yıldız isə ATU rektoru ilə onlayn görüş zamanı bu gərgin günlərdə Azərbaycan xalqının və rəhbərliyinə dəstəyini ifadə edib. Rektor M.Yıldız Azərbaycan Ordusunun qələbələri münasibətilə Azərbaycan xalqını ürəkdən təbrik edib. Həm də işğalçı Ermənistana qarşı həyata keçirdiyimiz ədalət müharibəsində bizi tam dəstəklədiyini bildirib.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli dəstək bəyanatları üçün Türkiyəli həmkarlarına təşəkkürünü çatdırıb. Cavab məktubunda rektor Ermənistanla Azərbaycan arasında davam edən Dağlıq Qarabağ münaqişəsinin tarixi, 27 sentyabr hadisələrinə səbəb olan erməni təxribatı və Azərbaycanın hazırda apardığı haqq savaşı haqqında ətraflı məlumat verib. Qeyd edib ki, bu həssas dövrdə Türkiyənin ən güclü universitetlərindən dəstək məktublarını almaq bizi çox qürurlandırıb: "Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, Türkiyə ilə Azərbaycan iki dövlət, bir millətdir. Tarix boyunca biz yaxşı və pis günlərimizdə birlikdə olmuşuq, bir-birimizdən qardaş dəstəyimizi heç vaxt əsirgəməmişik".

Yüksək həssaslıq, diqqət üçün 19 Mayıs Universiteti, İnönü Universiteti və Qazi Universitetlərinin rəhbərlərinə təşəkkür edən professor Gəray Gəraybəyli Azərbaycan həqiqətləri ilə bağlı dünya ictimaiyyətinin məlumatlandırılması istiqamətində görülən işlər üçün də universitet rektorlarına təşəkkürünü çatdırıb.

"Azərbaycan xalqı olaraq, bu ədalətli mübarizədə qardaş Türkiyənin yanımızda olmasından qürur duyuruq və sizə dərin minnətdarlığımızı bildiririk" deyən professor G.Gəraybəyli Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun bu savaşda qələbə qazanacağından əmin olduğunu da vurğulayıb.

# ATU Silahlı Qüvvələrin Yardım Fonduna 200 min manat ianə edib

**Rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı ardıcıl zəfərlər bütün xalqımızda böyük ruh yüksəkliyi yaradıb. Hər birimiz ərazi bütövlüyümüzün təmin olunması naminə erməni işğalçıları ilə aparılan bu savaşda əsgərlərimizə yardımçı olur, tam qələbənin əldə olunması üçün əlimizdən gələni etməyə hazır olduğumuzu nümayiş etdiririk.**



Azərbaycan Tibb Universitetinin kollektivi də bu zəfərin bir parçası olmaq, haqq mübarizəsinə öz töhfəsini vermək niyyətilə Silahlı Qüvvələrin Yardım Fonduna 200 min manat ianə edib. Bundan əlavə, ATU həkimləri döyüş bölgələrində xidmət göstərməklə, Azərbaycanın müdafiəsinin təminatında iştirak etməkdən böyük şərəf və iftixar hissi keçirdiklərini bəyan edirlər.

İnanırıq ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin başçılığı ilə qəhrəman əsgərlərimiz ədalət uğrunda apardığı müharibədə qələbə qazanacaq, məcburi köçkünlər uzun illərdən sonra öz doğma torpaqlarına qayıdacaq, hər birimiz azad Qarabağın nəfəsini duyacağıq.

Qələbə bizimlədir! Qarabağ Azərbaycandır!

ATU-nun mətbuat xidməti

# Tibb və fiziologiya üzrə Nobel mükafatı laureatlarının adları açıqlanıb

**Nobel komitəsinin rəsmi saytınının yaydığı xəbərə görə, amerikalı Harvi Olter, Çarlz Rays və britaniyalı Maykl Houton hepatit C virusunun kəşfinə görə 2020-ci il üzrə fiziologiya və tibb sahəsində Nobel mükafatına layiq görülüblər.**

2020-ci il Fiziologiya və Tibb üzrə Nobel mükafatları C Hepatiti virusunun müəyyənləşdirilməsindəki "seminal kəşflərinə" görə ABŞ-dan alimlər Harvi J. Alter və Çarls M. Raysa və Britaniya alimi Maykl Houtona verilib.

Hər üç alim "dünya miqyasında böyük bir qlobal sağlamlıq problemi olan, insanlarda qan yolu ilə yoluxan serroz və qaraciyər xərçənginə səbəb olan hepatitlə mübarizəyə həlledici töhfə verib" - deyə, Nobel komitəsinin bəyanatında bildirilib.

Alimlər Hepatit C-nin müalicəsi və müalicəsinin yeni üsullarını tapıb.

Bəyanatda "C Hepatit virusunun kəşfi, Hepatit A və B viruslarının kəşfindən sonra xroniki hepatit hallarının səbəbini ortaya çıxardı, "qan testlərini və milyonlarla insanın həyatını xilas edən yeni dərmanlar hazırlanmasını mümkün etdi" deyilib.

1935-ci ildə Nyu-Yorkda anadan olan Harvi Alter Roçester Universitetinin Tibb Fakültəsini bitirib. Alter uzun müddət ABŞ-ın Milli Səhiyyə İnstitutlarında baş tədqiqatçı kimi çalışıb.

Maykl Hoqton 1950-ci ildə Britaniyada anadan olub. Virusologiya üzrə doktorluq dərəcəsini London Kral Kollecində alıb. Hoqton hal-hazırda Kanadanın Alberta Universitetinin Virusologiya üzrə Mükəmməl Tədqiqat Kafedrasında çalışır.










1952-ci ildə Kaliforniyanın Sakramento şəhərində anadan olan Çarls Rays doktorluq dərəcəsini 1981-ci ildə Kaliforniya Texnologiya İnstitutunda alıb. Vaşinqton Universitetinin tibb fakültəsində tədqiqatçı və professor olaraq çalışıb. Ondan sonra Nyu-Yorkdakı Rokefeller Universitetində işləyib və 2001-ci ildən 2018-ci ilədək Hepatit C. Tədqiqat Mərkəzinin elmi və icraçı direktoru olub. Rays hələ də orada fəaliyyət göstərir.

Bu il Tibb üzrə Nobel Mükafatı 1901-ci ildən bəri bu kateqoriyada verilən 111-ci mükafatdır.

# Yaralı əsgərlərimizə ixtisaslı cərrahi yardım göstərməyə hazırdı

**◆Azərbaycanda fəaliyyət göstərən əksər tibb ocaqları kimi Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikası (TCK) da cəbhə xəttində yaşanan hadisələrlə əlaqədar gücləndirilmiş iş rejiminə keçib. Klinikanın həkimləri Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə yaralanan hərbçilərimizdən, eləcə də erməni təxribatı nəticəsində xəsarət alan mülki əhalidən köməyini əsirgəmir. ATU-nun rektoru, professor Gəray Gəraybəylinin tapşırığına əsasən, klinikanın təcili yardım, reanimasiya, əməliyyatxana və digər şöbələri yaralıların qəbulu üçün tam hazır vəziyyətə gətirilib. Qeyd edək ki, universitetin və klinikanın 14 əməkdaşı könüllü olaraq cəbhə bölgəsinə gedərək, yaralı vətəndaşlarımıza və əsgərlərimizə tibbi xidmət göstərir.**




**ATU-nun Tədris Cərrahiyyə Klinikasının baş həkimi, professor Ramiz Poluxovun sözlərinə görə, klinikanın 60-dan artıq həkimi isə könüllü olaraq cəbhə bölgəsində işləmək üçün öz növbəsini gözləyir:**

*- Məlum olduğu kimi, ATU-nun Tədris Cərrahiyyə Klinikası 1 aprel tarixindən öndə gedən klinikalardan biri kimi koronavirus infeksiyasına qarşı mübarizəyə qoşuldu və bu dövr ərzində COVİD-19 infeksiyasına yoluxmuş müxtəlif yaş qrupundan olan 1000-ə yaxın xəstəyə yardım göstərdi. Bu xəstələr arasında koronavirus infeksiyası ilə yanaşı, müxtəlif cərrahi patologiyası olan xəstələr və hamilələr də az deyildi. Həmin xəstələrə də ixtisaslaşdırılmış yardım göstərildi. Tədris Cərrahiyə Klinikası respublikada koronaviruslu hamilələrdə doğuşu və neonatal xidməti təşkil edən ilk klinikalardan biri oldu. Fürsətdən istifadə edərək koronavirusla fədakarcasına işləyən bütün əməkdaşlara öz minnətdarlığımı bildirirəm. Sentyabr ayının əvvəlində koronavirusa yoluxma hallarının azalması və yaranmış boşluğu nəzərə alaraq, klinika tam təmir olunub və adi xəstələrin qəbuluna hazırlanıb. Sentyabrın 27-də səhər saatlarında Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı təxribatı nəticəsində istər mülki əhali, istərsə də hərbçilərimiz arasında yaralananlar oldu.*

*Hörmətli rektorumuz, professor Gəray Gəraybəyli zəng edərək klinikanın təcili xəstə qəbuluna hazır olması tapşırığını verdi. Biz qısa müddətdə əməkdaşları topladıq. Rektor Gəray Gəraybəyli özü klinikaya gələrək əməkdaşlarla görüşdü. Klinikanın təcili yardım, reanimasiya, stasionar şöbələrini, əməliyyatxanalarını gəzərək, klinikanın xəstə qəbulu üçün tam hazır olduğunu bildirdi. Bizim klinika ixtisaslaşdırılmış cərrahi klinikadır və cərrahiyyənin bütün bölmələri üzrə yüksək ixtisaslı cərrahi yardım üçün tam hazırdır. Artıq yaralı əsgərlərimizə ixtisaslı cərrahi yardım göstərməyə başlamışıq.*

**- Tədris Cərrahiyyə Klinikasının yüksək ixtisaslı tibb personalı könüllü olaraq cəbhə bölgəsinə gedib. Daha çox hansı sahə üzrə həkimlərə ehtiyac var?**

*- Bəli, elə həmin gündən universitetin və klinikanın 14 əməkdaşı könüllü olaraq bölgələrdə yaralı vətəndaşlarımıza və əsgərlərimizə yardım üçün göndərildi. Əsasən, ümumi cərraha, eləcə də, kardiocərrah, üz-çənə cərrahı, travmotoloq, reanimotoloqa daha çox ehtiyac var. Hazırda 60-dan artıq həkimimiz könüllü olaraq cəbhə bölgələrində işləmək üçün öz növbəsini gözləyir. Qeyd edim ki, Azərbaycan xalqı sülhsevər xalqdır, heç vaxt qan tökülməsini istəməyib. Ölkə rəhbərliyi 30 ildir ki, dözümlülük göstərərək münaqişənin sülh yolu ilə həllinə çalışırdı. Lakin Ermənistan rəhbərliyi Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan sülh danışıqlarına son qoyub və bu gün də öz təcavüzkar siyasətini davam etdirir. Ona görə də Azərbaycan xalqı Ali Baş Komandanın rəhbərliyi altında öz tarixi torpaqlarını qaytarmaq üçün mübarizəyə qalxıb. Təəssüf ki, müharibə itkisiz olmur. Mən Azərbaycanın ərazi bütövlüyü, Qarabağın azadlığı uğrunda vuruşan bütün qəhrəman övladlarımızın valideynləri qarşısında baş əyirəm. Şəhidlərimizə Allahdan rəhmət, yaralı övladlarımıza tezliklə şəfa diləyirəm. Qələbə bizimlədir!*

# ATU-nun Ortopedik stomatologiya kafedrasından hərbçilərimizə sovqat

**◆ Azərbaycan Ordusunun düşmənin təxribatlarına qarşı sentyabrın 27-dən başlatdığı uğurlu əks-hücum əməliyyatı xalqımıza böyük fərəh hissi yaşadır. Vətəndaşlarımız hərbi hissələrə gedərək, əsgərlərimizi ziyarət edir, onlara sovqat aparır və mənəvi dəstək olurlar.**

Stomatologiya fakültəsinin dekanı, Ortopedik stomatologiya kafedrasının dosenti Səid Əhmədovun sözlərinə görə, əməkdaşlar əsgərlərə yardım üçün 4000 manata yaxın maddi vəsait toplayıblar: "Yığılan pula tibbi ləvazimatlar - spirt, bint, ketanol, betadin iynələri, pambıq, eləcə də geyim – adi və yun corablar, qalın altlıq geyimlər, əlcəklər,





papaqlar, 25 blok siqaret, 10 kaset meyvə şirəsi aldıq. Goranboy rayonunun Şəfəq kəndinə getdik. Qarşılandığımız post cəbhə xəttinə 7-8 km aralıqda idi. Apardığımız sovqatı hərbi hissəyə verdik. Ümid edirik ki, bizim də cəbhə bölgəsində düşmənlə vuruşan əsgərlərimizə kiçik də olsa köməyimiz dəydi. İnanırıq ki, şanlı ordumuz bu mübarizədə qalib gələcək!"

ATU-nun Ortopedik stomatologiya kafedrasının kollektivi də Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşən hərbçilərimizə baş çəkiblər. Əsgərlərimizə yardım məqsədi ilə topladıqları maddi vəsait hesabına aldıqları zəruri məişət ləvazimatlarını və isti geyimləri onlara pay veriblər.

Qeyd edək ki, dosent Səid Əhmədova birgə hərbi hissəyə yardım aparan heyətdə fakültə HİK-nin sədri Tofiq Mahmudov, Ortopedik stomatologiya kafedrasının tədris hissə müdiri Elmar Babayev, assitentlər Əli Əliyev və Rüfət Hüseynli də olublar.

**ATU-nun mətbuat xidməti**

***Yarandığı ilk illərdən respublikada tüğyan edən yoluxucu xəstəliklərin, epidemiyaların qarşısının alınmasında, əhali arasında sanitariya maarifi işinin gücləndirilməsində Azərbaycan Tibb Universiteti əvəzsiz rol oynamışdır. Ölkəmizi yüksək ixtisaslı kadrlar ilə təmin edən bu təhsil mərkəzi tarixi bir missiyanı uğurla yerinə yetirmiş və qısa müddət ərzində Azərbaycanda insan sağlamlığının keşiyində duran böyük həkimlər ordusu yaranmışdır.***

***H. Əliyev***

# Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, səhiyyə təşkilatçısı

**Bakı Dövlət Universitetinin tibb fakültəsinin Azərbaycan Dövlət Tibb İnstitutuna çevrilməsindən 90 il keçir. Ölkə prezidentinin 14 may 2020-ci il sərəncamı ilə yubileyini qeyd edəcək bu elm məbədinin keçdiyi yolu ona rəhbərlik edən rektorlarsız təsəvvür etmək çətindir. Elə bu yazıda da vaxtında bu universitetə başçılıq edən, şərəfli həyat yolu keçən Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, səhiyyə təşkilatçısı, professor Əziz Məmmədkərim oğlu Əliyevdən söhbət açacağıq. Əziz Əliyevin nəsillərə nümunə olan həyatının ciddi məqamlarına aydınlıq gətirməyə çalışacağıq.**

Əziz Əliyev Azərbaycan Tibb İnstitutunun rektoru olduğu vaxtlar ciddi elmi-tədqiqat və tədrisin keyfiyyətini yüksəltməyə xidmət edən işlər yerinə yetirilir. Bu dövrdə Azərbaycan dilində 45 adda dərslik və tədris vəsaiti hazırlanır, sanballı elmi əsərlər yaranır. Azərbaycan tibb elmi Ümumittifaq səviyyədə öz yerini almağa başlayır. Institut əməkdaşlarının – M.Mirqasımovun, M.Topçubaşovun, M.Mirsəlimovun, Ə.Talışinskinin, U.Musabəylinin, Y.Qazıyevin, M.Qəniyevin, R.Hüseynovun, M.Əfəndiyevin, Z.Məmmədovun və digərlərinin tibbin müxtəlif sahələrini əhatə edən əsərləri yaranır. Bu dövrdə professor Əziz Əliyev Tibb Universitetinin əsaslı kitabxanasının təşkilatçısı və ilk yaradıcısı olub. İqtisadi çətinliklər dövründə kitabxana yaratmaq, onu dünya tibb ədəbiyyatı ilə zənginləşdirmək Əziz Əliyevin əsas məqsədi olub. Yaratdığı kitabxanadan təkcə Tibb İnstitutu deyil, respublikanın bütün həkimləri istifadə edirdi.

Rektor olduğu qısa müddətdə 11 doktorluq və xeyli namizədlik dissertasiyası müdafiə edilib. Əziz Əliyevin təşəbbüsü ilə kafedraların nəzdində təsis edilmiş aspiranturada 4 il ərzində 19-u milli kadr olmaqla 30 tibb elmləri namizədi hazırlanıb. O, tibb sahəsi üzrə milli kadr hazırlığını daima ön plana çəkərək, onların yetişmələrində müstəsna rol oynayıb.

1934-cü ildə Əziz Əliyev tərəfindən yazılan “Klinik analizlər” kitabı həkimlər üçün mühüm əhəmiyyət kəsb etmişdir. Əsərə o dövrdə kafedra müdiri işləmiş professor G.Yeqorov rəy vermiş və onun çox lazımlı, vaxtında yazılmış kitab olduğunu qeyd etmişdir.

Əziz Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə ilk dəfə “Praktiki və nəzəri tibb jurnalı”nın nəşri həyata keçirilib. Bir müddət məsul katibi olduğu “Azərbaycan tibb jurnalı”nın 1935-ci ildə redaktoru təyin edilib. Eləcə də 1933-cü ildə Əziz müəllimin təşəbbüsü ilə Tibb institutunda “Tibb kadrları uğrunda” çoxtirajlı qəzet çap olmağa başlayıb. Mövzu əhatəliliyi və poliqrafik cəhətdən yüksək səviyyədə çap olunan bu qəzet səhiyyəmizin və təhsilimizin problemlərini işıqlandırmaqdadır.

Əziz Əliyevin tələbələrinin xatirələri əsasında bu böyük şəxsiyyətin xarakteri milyonlara açılır. Tanınmış jurnalist Tahir Talıblının “Əziz Əliyev” adlı monoqrafik xarakterli kitabında oxuyuruq: “O illərin Tibb İnstitutunun tələbələrindən olan, professor Abdulla Quliyev yazırdı ki, unudulmaz müəllimim və tərbiyçim Əziz Məmmədkərim oğlu Əliyevi şəxsən 1932-ci ildən tanıyırdım. Onda o, Azərbaycan Tibb İnstitutunun direktoru, mən isə tələbəydim. Əziz müəllim fakültə terapiyası kafedrası nəzdindəki laboratoriya diaqnostikasından bizə dərs deyirdi. Tələbələrin dolanışığı o qədər də yaxşı deyildi. Direktorumuzun qayğısı sayəsində tələbə yeməkxanası təşkil edilmişdi. Hər tələbəyə gündə 500- 600 qram çörək verilirdi, güzəranımız yaxşılaşmışdı. Direktorumuz hamımızın sevilən mötəbər qəyyumu idi. Əziz müəllim bütün tələbələri şəxsən familiyası ilə tanıyırdı. Hər birimizə ayrı-ayrılıqda fərdi münasibət göstərirdi. Lakin hamıya eyni atalıq tələbkarlığını da unutmurdu.

1936-cı ilin fevralında Əziz Əliyevin təşəbbüsü ilə son kursun bir qrupunu paytaxt həkimlərinin, mütəxəssislərinin iş təcrübəsi ilə tanış olmaq üçün Moskva və Leninqrad şəhərlərinə göndərdilər. 32 nəfərin sırasında mən də vardım. Altı tələbənin ayaqqabısı çarıx çıxdı. Əziz müəllimin göstərişi ilə onlara abırlı ayaqqabı və paltar aldılar ki, Moskvaya “lüt” getməsinlər. Bu səfər mənə və kursdaşım – hazırda əməkdar elm xadimi, adlı-sanlı həkim H.İsazadəyə çox şey verdi. Konçalovskinin klinikasında qazandığımız təcrübə sonralar göstərdiyimiz az-çox elmi fəaliyyətimizdə qolumuzdan tutdu. Lakin mən hər şeydən əvvəl öz müəllimim Əziz Əliyevin qayğısına, sərraf uzaqgörənliyinə borcluyam. Mən və mənim digər yoldaşlarım Əziz Əliyevi özümüzə ən doğma insan, hami və başbilən sanırdıq.

... Əziz Əliyev Azərbaycan Səhiyyə Komissarı (Naziri) təyin olunan günlər Tibb İnstitutunun tələbələri “üsyan” qaldırmışdılar, onu “itirmək” istəmirdilər. Bir şəxsiyyət kimi, insan kimi onu sevdiyimizdən o vaxt çoxumuz dərk etmirdik ki, Əziz Əliyev səhiyyə komissarı vəzifəsində respublikamızda tibb elminin inkişafı, milli tibb kadrlarının yetişdirilməsi sahəsində nə kimi böyük faydalı işlər görə bilər”.

Bu gün Əziz Əliyev kimi şəxsiyyətin həyatının öyrənilməsi, onun xarakterindəki incəliklərin tədqiqi əvvəlki dövrlərdən də vacibdir. Onun üçün əsas olan çalışmaq, qurub-yaratmaq, xalqa sədaqətlə xidmət etmək olmuşdur. Əziz Əliyev səhiyyə naziri olanda da, Dağıstanın rəhbəri işləyəndə də, repressiya olunaraq 3 saylı şəhər xəstəxanasına baş həkimin müavini göndəriləndə də səbr, təmkin, səbatlılıq simvoluna çevrilə bilmişdir.

XX əsrin 30-cu illərinin o müdhiş, repressiya vaxtlarında rektor və səhiyyə naziri kimi çalışan Əziz Əliyevin xidmətlərini böyük türk yazıçısı Nazim Hikmət belə qiymətləndirirdi: “1937-1938 –ci illərdə Azərbaycan xalqının 38 mindən çox övladı repressiyaya uğrayıb, tutulub, sürgün edilib, güllələnib. Repressiya olunanlar içərisində ən az zərər çəkənlər həkim personalı olub. Əlbəttə, bu, Əziz Əliyevin xidmətləri idi ki, həkimlər belə təqiblərdən yaxa qurtara bilmişdilər. Təsadüfi deyildir ki, 1938-ci ildə Azərbaycan KP MK tərəfindən aldığı partiya cəzası da Əziz Əliyevə Tibb İnstitutunda antisovet əhvali-ruhiyyəsi yaradanlarla zəif mübarizə aparması üstə verilmişdir”.

Bu gün Əziz Əliyev ruhu doğulub boya-başa çatdığı İrəvan mahalı üzərində narahat-narahat dolaşmaqdadır. Digər tərəfdən öz qısa ömründə keşməkeşlərlə dolu bir həyat yaşayan professor Əziz Əliyev şəxsiyyətinin ruhu şaddır. Ruhu şaddır ona görə ki; - daim erməni daşnaklarının məkri ilə üzləşən, repressiyalar yaşayan Azərbaycan xalqı ölkə prezidenti İlham Əliyevin ətrafında öz müstəqil dövlətini bərqərar etməkdədir; - arzusunda olduğu demokratik təsisatlara söykənən, iqtisadi cəhətdən güclü olan dövlət qurulmuşdur; - zamanında rəhbərlik etdiyi Tibb Universiteti dünyanın aparıcı ali təhsil ocaqları ilə elmi əlaqələr qurur, məzunlarının sorağı məşhur klinikalardan gəlir; - universitetdaxili elmi və tədris problemlərini çözən “Təbib” qəzeti, elmi-tədqiqat işlərinin yer aldığı “Azərbaycan Tibb Jurnalı” yüksək səviyyədə tibb ictimaiyyətinə



xidmət edir; -

Əziz Əliyev şəcərəsinə mənsub həkim-alimlər onun səhiyyə sahəsində arzularının reallaşmasına həmişə çalışaraq, bu sahənin inkişafına öz layiqli töhfələrini vermişlər. Dünyasını dəyişmiş akademik Zərifə Əliyeva, əməkdar elm xadimi, professor Tamerlan Əliyev, eləcə də bu gün bizlərlə çiyin-çiyinə çalışan akademik Cəmil Əliyev, professor Tamfira Əliyeva, professor Əziz Əliyev, dosent Nadir Zeynalov və digər övladları professor Əziz Əliyevin tibb sahəsindəki nurlu yoluna həmişə sadiq olmuşlar, bu gün də həmin yolu əzmlə, ardıcıllıqla, sevgi ilə davam etdirirlər.

Bir faktı da qeyd etmək yerinə düşər ki, Əziz Əliyevin rektorluq yolu bütün rektorlar üçün məhək daşı rolunu oynamışdır. Tanıdığım müxtəlif nəsillərin həkimləri, alimləri öz dövrünün rektorlarını müsbət xatırlayırlar. O xətt, o yol, o məslək bu gün də bizlər tərəfindən – Əziz Əliyevin mənəvi övladları tərəfindən qorunub saxlanılır. Uzağa getməyək bəşəriyyətin başının üstünü almış korona infeksiyası dövründə Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli başda olmaqla əməkdaşlarımız universitetin Tədris-Terapevtik (direktoru professor Surxay Musayev) və Tədris-Cərrahiyyə (direktoru professor Surxay Hadiyev) klinikalarında əzmkarlıqla çalışmışlar və bu gün də çalışmaqda davam edirlər. Sonda XX əsrin 30-cu illərində tüğyan edən infeksiyalara qarşı mübarizəyə ömrünü həsr edən, İrəvandan – Bakıya, Təbrizdən – Dərbəndə hamının sayğılarla dolu “Əziz həkim” müraciətinə sahib professor Əziz Əliyevə, koronavirus infeksiyası ilə mübarizədə həyatlarını itirmiş tibb işçilərimizə Ulu Tanrıdan rəhmət, xəstələnənlərə isə sıralarımıza qayıdıb fəaliyyətlərini davam etdirməyi arzulayırıq.

**Nağdəli ZAMANOV,**
*III daxili xəstəliklər kafedrasının dosenti*

# ÜST kütləvi yoluxma yolu ilə koronavirusa qarşı kollektiv immunitet strategiyasını tənqid edib

**◆ Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) koronavirus pandemiyasına qarşı mübarizə çərçivəsində kütləvi yoluxma yolu ilə kollektiv immunitet strategiyasının yolverilməz olduğu barədə xəbərdarlıq edib.**




AZƏRTAC xəbər verir ki, təşkilatın rəhbəri Tedros Qebreyesus Cenevrədə pandemiyanın lap əvvəlindən tez-tez gündəmə gələn bu mövzu barədə tənqidi fikirlər səsləndirib. O bildirib ki, dünya səhiyyəsi tarixində heç zaman kollektiv immunitet hansısa epidemiyanın qarşısının alınması üçün istifadə edilməyib və belə bir strategiyadan pandemiyaya qarşı istifadədən danışmağa belə dəyməz. Belə bir addım həm etik, həm də elmi nöqteyi-nəzərdən problemlidir. Kollektiv immunitetə qızılca və ya poliomelit viruslarında olduğu kimi kütləvi yoluxma yolu ilə deyil, peyvəndləmə yolu ilə nail oluna bilər. Eyni zamanda elmə hələ tam olaraq məlum deyil ki, koronavirusa bir dəfə yoluxmaq insanı ikinci yoluxmadan nə dərəcədə qoruya bilər.

Dünyada koronavirusa yoluxma hallarının artmasına toxunan T.Qebreyesus diqqətə çatdırıb ki, infeksiyaya yeni yoluxmaların əsas hissəsi az sayda ölkələrin payına düşür. Bunlardan tam yarısı isə cəmi üç ölkədə qeydə alınıb. Bu da onu göstərir ki, virusa qarşı mübarizə tədbirlərinin təsir gücü yoluxmanın qarşısını almaq üçün əsas vasitədir. Pandemiyanın qeyri-bərabər şəkildə yayılması isə ona qarşı cavab tədbirlərini çətinləşdirir.

# Maskalar COVID-19-a yoluxmanı ikiqat azaldır

**◆ Yeni araşdırmalar zamanı belə bir qənaətə gəlinib ki, maskalardan məcburi istifadə koronavirusun yayılmasının qarşısının alınmasında əhəmiyyətli rol oynayır. Müvafiq araşdırma Kanada alimləri tərəfindən aparılıb.**

AZƏRTAC “MedikForum” saytına istinadla xəbər verir ki, Britaniya Kolumbiyasındakı “Saymon Freyzer” Universitetinin tədqiqatçıları maska taxmağın COVID-19-un yayılmasının qarşısının alınması istiqamətində əhəmiyyətli rolu barədə dəlillər aşkarlayıb. Lakin tədqiqatla bağlı hələlik resenziya alınmadığına görə, nəticələr dərcolunmadan öncəki hazırlıq mərhələsindədir. Layihə müəlliflərinin apardığı tədqiqatlar nəticəsində məlum olub ki, maska taxmağın qapalı mühitdə məcburi olunduğu yerləri digərləri ilə müqayisə etdikdə iyun, iyul ayları ərzində COVID-19-a 25-40 faiz az yoluxma faktı qeydə alınıb.

Maskalardan istifadə sayəsində bir həftə ərzində 700 -1 100 nəfər az insan koronavirusa yoluxub. Alimlər iyul və avqust aylarında məcburi maska rejimi tətbiq edilmiş Ontario ictimai səhiyyə sahəsinin 34 şöbəsində müşahidə aparıblar. Sonradan alimlər tərəfindən bütün Kanada ərazisində aparılan müvafiq tədqiqatlar nəticəsində əyalət səhiyyə departamentindən alınan məlumatlarda oxşar rəqəmlər aşkarlanıb. Maska rejimi qəbul edildikdən sonra ilk bir neçə həftə ərzində orta hesabla 46 faiz az yoluxma faktı qeydə alınır.

Tədqiqatın nəticələri göstərir ki, müvafiq qadağaların tətbiq olunmadığı yerlərlə müqayisədə məhdudiyyətlərin qüvvədə olduğu müəssisələrdə, insanların sıx toplaşdığı qapalı məkanlarda 48 faizdən 57 faizə qədər az yeni yoluxma faktları qeydə alınıb. Bütün bunlar, yuxarıda qeyd etdiyimiz kimi, maskalardan istifadənin sağlamlığın qorunması üçün mühüm əhəmiyyət kəsb etdiyini bir daha təsdiqləyir.

# Oktyabrın 10-u Ümumdünya Psixi Sağlamlıq Günüdür

**1992-ci ildən etibarən hər il oktyabrın 10-u Ümumdünya Psixi Sağlamlıq Günü kimi qeyd edilir.**

Bu gün Ümumdünya Psixi Sağlamlıq Federasiyasının təşəbbüsü və Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi ilə təsis edilib.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, hazırda dünyada 1 milyarda yaxın insan müxtəlif psixi xəstəliklərdən əziyyət çəkir. Hər il 3 milyon nəfər alkoqoldan və hər 40 saniyədə bir nəfər intihar nəticəsində həyatını itirir.

Ümumdünya Psixi Sağlamlıq Gününün qeyd olunması psixi sağlamlığın problemləri, onun möhkəmləndirilməsi və profilaktik üsulları barədə ictimaiyyətin məlumatlılığının artırılması məqsədi daşıyır. Həmin gün beynəlxalq psixiatriya təşkilatlarının tematik jurnalları buraxılır, hökumət strukturları və səhiyyə təşkilatlarına beynəlxalq hərəkatda iştirak etməyə çağıran müraciətlər göndərilir.

Psixi sağlamlıq insanın öz qabiliyyətlərini reallaşdıra bildiyi, adi həyat streslərinin öhdəsindən gəldiyi, səmərəli çalışdığı vəziyyətdir. Konkret məqamda insanın psixi sağlamlıq səviyyəsi bir çox sosial, psixoloji və bioloji amillərdən asılı olur. Dünya üzrə faktlar göstərir ki, davamlı sosial-iqtisadi təzyiq, yoxsulluq, o cümlədən təhsil səviyyəsinin




aşağı olması həm ayrı-ayrı fərdlər, həm də icmalar üçün psixi sağlamlığın risk amillərinə aiddir. Sürətli sosial dəyişikliklər, işdə stres vəziyyəti, gender ayrı-seçkiliyi, sosial təcrid, qeyri-sağlam həyat tərzi, zorakılıq təhlükəsi, fiziki xəstəliklər, eləcə də insan hüquqlarının pozulması da psixi sağlamlığın pozulmasını şərtləndirən amillərə aid edilir. Bundan əlavə, insanları psixi pozuntulara həssas edən xüsusi psixoloji və şəxsiyyət amilləri, həmçinin genetik faktorlar və beyində kimyəvi maddələrin tarazlığının itməsi kimi bioloji səbəblər də bu amillərdəndir.

Hesablamalara görə, dünyada uşaq və yeniyetmələrin təxminən 20 faizinin psixi pozuntuları və ya problemləri var. Bununla belə, ölkələrin əksəriyyətində uşaq psixiatrlarının sayı çox azdır. Depressiya dünyada əlilliyə səbəbi olan ən başlıca xəstəliklərdəndir. Hər il yer üzündə orta hesabla 800 min insan intihar edir. Halbuki intiharın əksər hallarda səbəbi olan psixi pozuntuları müalicə etmək mümkündür. Psixi pozuntular infeksion və qeyri-infeksion xəstəliklərin inkişafının risk amillərinə aid edilir. Müharibələr və digər fəlakətlər də psixi sağlamlığa əhəmiyyətli dərəcədə təsir göstərir.

Sağlamlığın ayrılmaz və əhəmiyyətli hissəsi olan psixika hər kəsə öz bacarıq və şəxsi potensialını nümayiş etdirməyə, adi həyat streslərini dəf etməyə, məhsuldar və faydalı iş görməyə, cəmiyyətə xeyir verməyə imkan yaradır. Psixi sağlamlığa nail olmaq üçün əsas məsələlərdən biri depressiv xəstəliklərin - şizofreniya, narkotik asılılığı, epilepsiya, əqli gerilik və Altsheymer xəstəliklərinin qarşısını almaqdır. Müasir həyatın tərkib hissəsinə çevrilən streslə mübarizə aparmaqdansa, onu "yaxına buraxmamaq" daha yaxşıdır.

# Oktyabrın 12-si Ümumdünya Artritlə Mübarizə Günüdür

**1996-cı ildən oktyabrın 12-si Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə bir çox ölkədə Ümumdünya Artritlə Mübarizə Günü kimi qeyd edilir.**




Həmin günün qeyd olunmasında əsas məqsəd revmatoloji xəstəliklər və artritin formaları haqqında ictimaiyyəti məlumatlandırmaq, xəstəliyin erkən diaqnostikası, profilaktikası, tibbi və sosial bərpası məsələlərinə diqqəti cəlb etmək, həkim, xəstə və ictimaiyyətin səylərinin birləşdirilməsidir.

Artrit bir və ya bir neçə oynağın ciddi iltihabi xəstəliyidir, onun müalicə edilməməsi nəinki ağrı və hərəkətin məhdudlaşmasına, həm də əlillik və iş qabiliyyətinin itirilməsinə səbəb olur. Ümumiyyətlə, oynaq xəstəliklərinin böyük bir qrupunu artrit adlandırırlar və onlardan ən geniş yayılanı artroz və revmatoid artritdir. Oynaqların tez-tez təkrarlanan ağır və yüngül travmaları, fiziki gərginlik və ya genetik irsiyyət xəstəliyin yaranma səbəbləri sırasına aid edilir. Bundan başqa artritin inkişafı virus və bakterial infeksiyaları, həddindən artıq soyuqlama, fiziki və psixi yüklənmə, hətta siqaretə aludəçilik də xəstəliyə səbəb ola bilər. Lakin xəstəliyin yaranma səbəbləri və inkişaf mexanizmləri heç də tam öyrənilməyib.

Son onillikdə dünyada sümük-əzələ sisteminin və birləşdirici toxumanın xəstəliklərinin artması müşahidə edilir. Bu problem sümük-əzələ, qan dövranı və tənəffüs sistemi xəstəliklərindən sonra üçüncü yerdədir. Yaranma səbəbləri və inkişaf mexanizmi tam öyrənilməyən artritin insan ömrünü 3-7 il qısaltdığı sübut olunub. Ən təhlükəlisi isə odur ki, xəstəliyin risk qrupuna yaşından asılı olmayaraq hər kəs daxildir. Lakin artrit ən çox oynaqların revmatik xəstəliyinin yaranmasına səbəb olur ki, bu da 30-50 yaş arası olanlarda rast gəlinir. Kişilərə nisbətən qadınlarda həmin xəstəliyə beş dəfə çox qeydə alınır.

Xəstəlikdən yaxa qurtarmaq üçün həkimlər sağlam həyat tərzi keçirməyi, fiziki hərəkətlər etməyi, düzgün qidalanmağı, həmçinin öz psixoemosional vəziyyətini dəqiq qiymətləndirməyi məsləhət görürlər. Müntəzəm fiziki hərəkətlər əzələlərin möhkəmlənməsinə və qamətin yaxşılaşmasına kömək edir. Artrit xəstələrinin qidasında turşuluq dərəcəsi aşağı olmalı, menyuya meyvə və tərəvəzlərdən hazırlanan salatlar daxil edilməlidir. Alma, gavalı, turşəng, qaragilə meyvələri, çaytikanı, qara qarağat, həmçinin D vitamini ilə zəngin qidalar rasionda üstünlüyə malik olmalıdır.

# Özümüzü xəstəliklərdən qorumaqla arxa cəbhəni zəifləməkdən, ön cəbhədə döyüşən hərbçiləri xəstəliklərdən müdafiə etmiş olarıq



**◆ Son günlər hər birimiz yaddaşımızda əbədi izlər buraxacaq hadisələr yaşamaqdayıq. Fərəh, qürur, sevinc və eyni zamanda, şəhidlərimizə görə ağrı hissləri hər birimizi bürüyüb.**

Sentyabrın 27-i səhər saat 6 radələrindən Ermənistan silahlı qüvvələrinin cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini atəşə tutması ilə Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan, Prezident İlham Əliyevin əmri ilə düşmənə qarşı əks hücuma keçdi. Həmin tarixdən etibarən başlayan döyüşlərdə ordumuz erməni terrorçularına layiqli cavab verir, onları ağır itkilərə məruz qoyur. Bizim öz tarixi torpaqlarımız üzərində suveren hüquqlarımızı bərpa etmək haqqımız var. Azərbaycan gec-tez işğal altında olan torpaqlarını azad edəcək. Bu, Vətən müharibəsidir. Hər kəs bu dövrdə əlindən gələni, bacardığını etməlidir. Xalqımız bir yumruq kimi birləşib ordumuza dəstəyini əsirgəmir. İgid Vətən oğulları isə əsl qəhrəmanlıq göstərir, hər qarış torpaq uğrunda canı, qanı bahasına mübarizə aparır. Bunun nəticəsidir ki, işğal altında olan ərazilərimizin bir hissəsi düşmən tapdağından azad edilib.

Bu sözləri AZƏRTAC-a müsahibəsində "Azərbaycan Diabet Liqası" İctimai Birliyinin sədri, Səhiyyə Nazirliyi nəzdində İctimai Şuranın üzvü Yeganə Sultanova deyib.

O, həmçinin qeyd edib: "Unutmaq lazım deyil ki, dünyanı vəlvələyə gətirən yeni növ koronavirus (COVID-19) infeksiyası hələ də geniş vüsət almaqda davam edir. Koronavirus bütün dünyanı ikinci dalğası ilə qorxuya salır. Ölkəmiz Qarabağ cəbhəsində olduğu kimi koronavirus cəbhəsində də ləyaqətlə və ağılla mübarizə aparır. Lakin bu mübarizədə hər birimiz iştirak etməliyik. Biz anlamalıyıq ki, vətənimizin bu ağır dövründə özümüzü xəstəliklərdən qorumaqla arxa cəbhəni zəifləməkdən və ön cəbhədə döyüşən hərbçiləri xəstəliklərdən müdafiə etmiş olarıq. Bu gün xəstəliyin geniş yayılması çox təhlükəlidir. Xəstəxanaların, tibb işçilərinin diqqəti cəbhəyə yönəldiyi bir dövrdə onları bu vacib missiyadan ayırmaq olmaz. Ona görə də özümüzü və döyüşən qüvvəmizi qorumalıyıq. Bunun üçün isə vacib şərt şəxsi gigiyena qaydalarını gözləmək, maskadan istifadə etmək, kütləvi toplantılara mümkün qədər şərait yaratmamaq, sosial məsafəni saxlamaqdır.

Azərbaycanda xüsusi karantin rejimi çərçivəsində yumşalma tədbirləri çox düşünülmüş formada aparılır. Kütləvi informasiya vasitələrinin, tibb işçilərinin və qeyri-hökumət təşkilatlarının apardığı maarifləndirmə işləri də öz töhfəsini verir. Əgər vətəndaşlarımız bu yüngülləşmə tədbirlərindən düzgün və qaydasında faydalansalar, payız mövsümünü rahat və problemsiz keçirə bilərik. Gigiyena qaydalarına riayət edilməsi, maskanın taxılması, sosial məsafənin qorunması kimi tədbirlər bizim hər birimizi payız-qış mövsümü üçün xarakterik olan digər respirator xəstəliklərə yoluxmaqdan da qoruya bilər".

# Həkimlərimiz şəhid oldular

Ermənistan silahlı qüvvələri tərəfindən açılan atəş nəticəsində hərbi həkim, leytenant Turqut Xəlilbəyli qəhrəmancasına şəhid olub.

O, döyüş meydanında yaralı əsgərimizə yardım edərkən həyatını itirib.

Gənc psixoloq Ruhid İslamlı Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Bu barədə Psixologiya Elmi-Tədqiqat İnstitutundan məlumat verilib.






**Allahdan hər ikisinə rəhmət diləyirik!**

# COVID-19-a yoluxma təhlükəsinə məruz qalmadan ünsiyyətə necə qayıtmalı

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa regionuna daxil olan 30 ölkənin səhiyyə sistemlərinin yüksəkvəzifəli nümayəndələri növbəti forumda əhalinin COVID-19 pandemiyasından yorğunluğu problemini müzakirə ediblər.**




AZƏRTAC BMT-nin rəsmi saytına istinadla xəbər verir ki, forum iştirakçıları insanların davranışında yaranmış son meyilləri araşdırıb, bu sahədə innovasiya ideyalarını və müsbət təcrübəni mübadilə ediblər.

Avropa regionuna daxil olan 27 ölkədə aparılmış rəy sorğuları nəticəsində məlum olub ki, müxtəlif ölkələrdə insanlar müxtəlif dərəcədə yorğunluq hiss edirlər. Bəzi hallarda rəyi soruşulanların 60 faizə qədəri bunu etiraf edib. Ekspertlər insanların COVID-19-u nə dərəcədə təhlükəli hesab etdiklərini, özlərini bu virusdan necə qoruduqlarını və sosial ehtiyatlılıq tədbirlərinə nə dərəcədə riayət etdiklərini araşdırıblar.

ÜST-nin Avropa Regional Bürosunun (ARB) direktoru doktor Hans Kluqe COVID-19-a qarşı mübarizəni zəiflətmədən əhalini motivasiya etməyə imkan verən üç strategiya təklif edir.

Birincisi, vətəndaşların "nəbzini tutmalı". Doktor Kluqenin fikrincə, COVID-19-a qarşı mübarizə sahəsində hər bir siyasət təhsilə qayıdan məktəblilərdən və tələbələrdən başlamış izolyasiyada olan ahıllar evinin sakinlərinə qədər bütün insanların davranışı və emosional vəziyyəti barədə məlumatlara əsaslanmalıdır. Onun fikrincə, bu, daha təsirli tədbirlər işləyib hazırlamağa imkan verəcək.

ÜST-nn Avropa Regional Bürosunun rəhbəri hesab edir ki, epidemiyaya qarşı strategiyanın hazırlanması zamanı bu və ya digər məhdudiyyətlərə münasibətin arxasında dayanan mədəni amilləri nəzərə almaq lazımdır.

İkincisi, vətəndaşlar zəruri tədbirlər haqqında qərarlar qəbul olunmasına cəlb edilməlidir. Hans Kluqe əmindir ki, əhaliyə təkcə siyasətin obyekti kimi deyil, həm də onun resursu kimi baxmaq lazımdır.

Üçüncüsü, normal həyat ritmini saxlamaq üçün yeni təhlükəsiz üsullar axtarıb tapmaq lazımdır. ÜST Avropa Regional Bürosunun direktoru xatırladıb ki, bayramlar yaxınlaşır və hər kəs istər özünü, istərsə də ətrafdakı insanları yoluxma riskinə məruz qoymadan bu bayramları qeyd etməyin yeni üsullarını tapmalıdır. Doktor Kluqe Ramazan bayramını nümunə göstərərək qeyd edib ki, builki Ramazan bayramında insanlar "məsafədən bayramlaşmaq" üsullarını tapıb, internet vasitəsilə əlaqə saxlayıblar.

Hans Kluqe deyib: "Əgər biz hamımız kreativlik göstərsək, heç kəsi yoluxma infeksiyasına məruz qoymadan bayramları qeyd edə bilərik".

# Soyuqdəymə və qripdən necə qorunmalı

**◆ Soyuqdəymə və qripdən qorunmaq üçün sadə məsləhətlər koronavirus infeksiyasının qarşısını almağa kömək edə bilər.**



Soyuqdəymə və qripdən qorunmaq üçün aşağıdakı məsləhətləri oxucularının diqqətinə çatdırır.

Qidalanmanı nəzarətdə saxlamalı. "Düzgün qidalanma" anlayışını ifrata varmadan dərk etməli. Bitki və heyvan zülallarından, mürəkkəb karbohidratlardan, sellüloz maddələrdən, faydalı yağlardan kifayət qədər istifadə edilməli. Kifayət qədər su içməli.

Qrip və soyuqdəymə xəstəliklərinin törədiciləri çoxsaylı insanların toplaşdığı qapalı məkanlarda daha tez yayılır. Buna görə də insanların sıx toplaşdığı yerlərdən çəkinmək tövsiyə olunur. Bunu etmək mümkün olmadıqda isə mütləq maskalardan istifadə olunmalı və əl ilə üzə toxunulmamalıdır.

Virus hissəcikləri müxtəlif məişət əşyalarının səthlərində yerləşir. Bu səbəbdən əlləri müntəzəm olaraq sabunla yumaq çox əhəmiyyətlidir, gündə bir neçə dəfə – xüsusilə dərhal küçədən evə qayıtdıqdan sonra.

Asqıran zaman ağzınızı mütləq dəsmalla tutmalı. Yaxşı olar ki, salfetə asqırasınız. Bu mümkün olmadıqda isə ağzınızı dirsəyinizlə örtməyiniz məsləhətdir, çünki əks halda patogen hissəciklər əllərinizə düşərək ətrafa yayılacaq. Salfetdən və dəsmaldan istifadə etdikdən sonra əllərinizi mütləq yumalısınız.

Qonaq getməyin. Əgər kiminləsə şəxsən görüşməyiniz vacibdirsə, təmiz havada görüşməyiniz məsləhətdir.

Qapalı məkanları havalandırın. Ətrafınızı təkcə dezinfeksiyaedici salfetlə silmək kifayət deyil, çünki qrip və soyuq viruslar adətən havada qalır. Tez-tez açıq havada olmağa çalışın. Otağı 10-15 dəqiqəlik ikitərəfli qaydada havalandırın.

Sakitliyə riayət olunmalıdır. Psixoloji gərginlik stres hormonunun konsentrasiyasının artmasına imkan yaradır ki, bu da orqanizmin funksiyalarını, o cümlədən immun funksiyasını boğur. Bu, nəticədə xəstələnməyə səbəb ola bilər.

D vitamini qəbul edin. D vitamininin çatışmaması immunitetin zəifləməsinə gətirib çıxara bilər ki, bu da mövsümi xəstəliklərə meyilliliyi artırır. Vitamin almağın ən sadə yollarından biri də açıq havada, günəş altında gəzməkdir. Bununla yanaşı, yumurta sarısı, mal qaraciyəri, kərə yağı, süd, yağlı balıq növləri ilə qidalanmaq çox vacibdir.

Alkoqollu içkilərdən, o cümlədən də soyuqdəymə və qripə yoluxmamaqdan ötrü şərabdan imtina edilməlidir. Alkoqollu içkilərə meyillilik immun sisteminin vacib strukturu olan orqanizmin dentroloji hüceyrələrinin vəziyyətinə mənfi təsir göstərir. Alimlər, alkoqollu içkilərə meyilli insanlarda vaksinlərin zəif effekt göstərməsini məhz bu xüsusiyyətlər baxımından izah edirlər.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların dosentləri:**

- III Cərrahi xəstəliklər kafedrası - 1 yer
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer

**Kafedraların assistentləri:**

- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 2 yer (0,5 vahid)
- Ümumi və toksikoloji kimya kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi gigiyena və ekologiya kafedrası - 1 yer
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)

**Bioloji kimya kafedrası üzrə Elmi Tədqiqat Laboratoriyası:**

- Kiçik elmi işçi - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14
Telefon: 597-10-08.

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (yeni formatda).
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

### Etibarsız sayılır

Stomatologiya fakültəsinin IV kurs, 717A6 qrup tələbəsi İsxanova Raminə İsxan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, 218A7a qrup tələbəsi Kərimli Aynur Davud qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, 4b qrup tələbəsi Musayeva Aytac Məzahir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin II kurs, 519A4B qrup tələbəsi Xəlilzadə Rüfət Səyyaf oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# "Virus ürəyin zədələnməsinə və ürək-damar ağırlaşmalarına da səbəb ola bilər"



**"Koronavirus birbaşa və dolayı yolla ürək-damar sisteminə təsir göstərərək ürəyin diffuz zədələnməsinə və ürək-damar ağırlaşmalarının yaranmasına səbəb ola bilər".**

Bunu Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının Konsultativ Diaqostik poliklinikanın müdiri, Terapevtik və pediatrik propedevtika kafedrasının assistenti Təranə Musayeva "COVİD-19 və ürək-damar sistemi xəstəlikləri" adlı məqaləsində bildirib.

Həkim bildirib ki, COVID-19-la törədilən xəstəlik bütün dünyada yayılaraq pandemiya şəklini alıb. Bu infeksiyanın patofiziologiyası virusa qarşı iltihabi cavabın güclənməsi ilə əlaqədardır, bu da ağciyər toxumasının zədələnməsinə və ürək-damar sistemi də daxil olmaqla generalizə olunmuş pozğunluqların yaranmasına gətirib çıxarır.

Mütəxəssis COVİD-19 və ürək-damar sistemi xəstəlikləri arasında əlaqənin öyrənilməsi zamanı bunların nəzərə alınmasının vacib olduğunu bildirib.

Onun sözlərinə görə, koronavirus birbaşa və dolayı yolla ürək-damar sisteminə təsir göstərərək ürəyin diffuz zədələnməsinə və ürək-damar ağırlaşmalarının yaranmasına səbəb ola bilər.

Həmçinin, koronavirusa yoluxma zamanı xəstələrdə əvvəldən mövcud olan ürək-damar xəstəliklərinin kəskinləşməsi də mümkündür.

T.Musayeva bildirib ki, bundan başqa, koronavirus infeksiyası zamanı qarşıya çıxan problemlərdən biri də ürək-damar sistemi xəstəlikləri olan pasiyentlər yoluxmaqdan çəkindikləri üçün hətta xəstəliklərinin kəskinləşdiyi ən ağır hallarda belə, həkimə müraciət etməməsidir: "Qeyd etdiyimiz bu səbəblər pandemiya zamanı ürək-damar ağırlaşmalarının və ölüm hallarının artmasına gətirib çıxarır. Ürək-damar sisteminin zədələnməsinə hospitalizə olunmuş xəstələrin 20-30%-də rast gəlinir. Bu, xəstəliyin bədxassəli gedişi ilə əlaqədardır və 40% hallarda ağciyər və ya poliorqan çatışmazlığından ölüm baş verir".

Onun sözlərinə görə, ürək-damar xəstəlikləri olan və həmçinin risk qrupuna aid olan şəxslər (kişi cinsinə mənsub olmaq, yaşlı şəxslər, həmçinin şəkərli diabeti, arterial hipertenziyası, piylənməsi olan şəxslər və s.) COVİD-19 yoluxma səviyyəsinin yüksək olması ilə səciyyələnir. Koronar xəstəliyi, ürək çatışmazlığı və aritmiyası olan xəstələrdə xəstəliyin gedişi boyunca ölüm riski yüksəlmiş olur:

"Koronavirus infeksiyasının ürək-damar sistemi ilə patofiziologi əlaqələrinin öyrənilməsində renin-angiotenzin sistemi haqqında məlumatların təhlili vacib əhəmiyyət kəsb edir. Virus AÇF2 reseptorları vasitəsilə hüceyrəyə daxil olur və onu zədələyir. Bu reseptorlar əsasən ağciyərlərdə, ürəkdə, böyrəklərdə mövcuddur. SARS-CoV-1 tərəfindən törədilən epidemiyalar zamanı aparılmış elmi-tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, infeksiya AÇF2-nin supressiyasını yaradır, bu da miokardın disfunksiyasına səbəb olmaqla onun yığılma funksiyasını pozur. Bu halda Angiotenzin 2 artır və endotelial disfunksiya ilə birgə miokardın zədələnməsinə gətirib çıxarır (uyğun olaraq SARS-CoV-2-də)".

Həkim bildirib ki, endoteldə baş verən dəyişikliklərin öyrənilməsi SARS-Cov-2 infeksiyasının patofiziologiyasında vacib rol oynayır: "Virus AÇF-2 vasitəsilə orqanizmə nüfuz edərək endotelial hüceyrələrə keçir və onlarda apoptoz yaradır. Damar endoteli parakrin, endokrin və autokrin aktivliyə malikdir və damar homeostazına cavabdehdir. COVİD-19-a yoluxmuş şəxslərdə histoloji müayinələr ağciyərin, ürəyin, böyrəklərin, qaraciyərin və digər orqanların damar şəbəkəsində ocaqlı nekrozla müşayiət olunan endotelitin yaranmasını sübut edib".

Onun sözlərinə görə, koronavirus infeksiyası həmçinin qanın laxtalanma amillərinə təsir göstərərək tromboembolik ağırlaşmaların yaranmasına səbəb ola bilər: "Xəstəliyin ilkin mərhələsində virus ağciyər parenximasına daxil olur və replikasiya olunur ki, bu da xəstəliyin başlanğıc simptomları ilə müşayiət olunur (bədən hərarətinin yüksəlməsi, quru öskürək, əzələ ağrıları, ishal və s.). Bu mərhələnin gedişi boyunca pasiyentlərdə protrombin vaxtının uzanması, D-dimerin konsentrasiyasının artması, LDH-ın yüksəlmiş aktivliyi, limfopeniya müəyyən olunur".

Mütəxəssis qeyd edib ki, əksər pasiyentlərdə proses bu mərhələ ilə bitir. II mərhələdə- ağciyər fazasında təngnəfəslik və qazlar mübadiləsinin pozulması baş verir ki, bu da ağciyərlərdə patoloji rentgen şəklinin yaranması ilə müşayiət olunur. Xəstəliyin bu fazasında iltihabi reaksiya güclənir və endotelial disfunksiyaya səbəb olur ki, bu da ağciyər toxumasının zədələnməsinə, hipoksiyaya və ürək-damar sisteminin ikincili yüklənməsinə gətirib çıxarır.

Həkim vurğulayıb ki, xəstəliyin III mərhələsi kəskin respirator distress-sindromun, sistem iltihabi cavab sindromunun, şok və poliorqan çatışmazlığının inkişaf etməsi ilə nəticələnən güclənmiş iltihabi reaksiyanın baş verməsi ilə səciyyələnir: "Aktivləşmiş iltihabi proses sitokinlərin artmasına və sistem pozğunluqlara səbəb olur. Sonuncu mərhələdə qan zərdabında interleykinlərin, CRP, Prokalsitonin, LDH, D-Dimer və ferritinin səviyyəsi yüksəlir. Qeyd olunan halların yaranmaması üçün pandemiya zamanı ÜST tərəfindən qəbul olunmuş qaydalara riayət etməyimiz vacibdir. Məşhur aforizmdə deyildiyi kimi - Ürəyimizi qoruyaq, çünki onun içində sevdiklərimiz var".

### Allah rəhmət eləsin!

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları İnformasiya sistemlərinin təşkili və idarəetmə mərkəzinin əməkdaşı Zaur Hacıyevə anası

**Roza xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Normal fiziologiya, İnsan anatomiyası və tibbi terminologiya kafedralarının əməkdaşları Normal fiziologiya kafedrasının dosenti

**Azər Vələdovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

# Artrit ağrılarını azaldan təbii vasitə tapılıb



**Yeni araşdırma revmatoid artrit ilə əlaqəli ağrıları minimuma endirməyə kömək edən səmərəli vasitə olan itburnu meyvəsinə işarə edir.**

Adətən bu vəziyyəti müalicə etmək üçün qeyri-steroid antiinflamatuar dərmanlar (QAİD) istifadə olunur. Bundan əlavə, xəstəliyi dəyişdirən dərmanlar və kortikosteroidlər təyin edilə bilər. Lakin bu müalicələrin çoxu qan təzyiqi, mədə xorası və qanaxma da daxil olmaqla xoşagəlməz təsirlərlə müşayiət edilir.

"Express" nəşri müəllifləri artrit zamanı ağrını azaldan təbii vasitə tapdıqları araşdırmadan bəhs etdi. "Revmatoid artritindən qaynaqlanan ağrıları azaltmağa qadir olan təbii maddələrdən biri itburnu meyvələrində tapılır", - deyə mənbə yazır.

Alimlər revmatoid artrit xəstəsi olan 89 xəstənin iştirakı ilə ikili kor randomizə edilmiş nəzarət müayinəsi aparmışlar. Könüllülərə altı ay ərzində itburnu meyvələrinin cövhəri və ya plasebo tərkibli əlavə veriblər. Nəticələr göstərdi ki, itburnu qəbul edən qrupda oynaqların ağrısının 30% azalması və aktivlik səviyyəsinin yüksəlməsi qeydə alınıb.

Onun sözlərinə görə, bu təbii vasitənin artrit zamanı ağrının azaldılmasına təsiri Skandinaviya və Almaniyada aparılmış əlavə tədqiqatlar ilə yoxlanılıb. Ekstraktı ilə əlavələrin oynaqlarda ağrı, sərtlik və şişkinliyi azaltmağa kömək etdiyini də təsdiqləyiblər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200